# İbtidai siniflərdə şagirdlərin rabitəli nitqinin inkişaf etdirilməsi məsələləri

**Günay Yadulla qızı Məstiyeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** mestiyevagunay@gmail.co

**Rəyçilər:** p.ü.f.d., prof. S.A. Rəhimova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** rabitəli nitq, nitq inkişafı, kurikulum, ifadə, esse
**Ключевые слова:** коммуникативная речь, развитие речи, учебный план, экспрессия, эссе
**Key words:** coherent speech, speech development, curriculum, expression, essay

Dil cəmiyyətin üzvləri arasında ünsiyyət və fikir mübadiləsi, insanlara təsir vasitəsidir. Dil, sosial bir fenomen olaraq, yalnız nitqdə öz funksiyasını yerinə yetirir. Dili bilmək nitqin əsasıdır. Dilin nitqə çevrilməsi üçün mühüm şərtlərdən biri fizioloji imkanlarla bağlıdır. Ümumiyyətlə, nitqin funksionallaşması üçün eşitmə, danışıq və s. orqanların da normal qaydada olması vacibdir. Yuxarıda qeyd etdiyimiz üç şərt daxilində nitqin funksionallaşması mümkündür. Bunlardan birinin pozulması nitqin pozulmasına səbəb ola bilər.

Məlumdur ki, uşaq məktəbə daxil olduğu zaman müəyyən nitq bacarıqları əldə edir. Ancaq onun nitqinin inkişafı üçün məktəbdə məqsədyönlü iş aparılmalıdır. İbtidai siniflərdə şagirdlərə sözdən istifadə etməyi, onlara həyat üçün lazım olan bacarıqlarını aşılamağı öyrətmək lazımdır.

Hazırda əvvəlki illərdə olduğu kimi, şagirdlərin şifahi və yazılı nitqinin inkişafına da tədris planında və ibtidai sinif dərsliklərində xüsusi diqqət yetirilir. Ana dili proqramında yer alan hər bir dərsdə nitqin inkişafı üzərində iş mühüm yer tutur, mahiyyət etibarilə hər bir tapşırıq nitqin inkişafı üzrə istiqamətlənmişdir. İbtidai sinif müəllimi, şagirdlərin yalnız qrammatik nəzəriyyə, imla bacarıqlarını mənimsəməsini deyil, həm də nitq prosesində sözləri düzgün şəkildə tələffüz etmək, düzgün seçmək və cümlədə istifadə etmək, oxumaq, eşitmək, öz fikirlərini və başqalarının fikirlərini ifadə etmək üçün öyrənmələrini təmin etmək üçün nəzarət etməlidir (2, s. 56). Məktəbin qarşısında duran ümumi pedaqoji problem şagirdlərin nitqinin inkişaf etdirilməsidir. Bu məsələ dil və düşüncə birliyi haqqında təlimdən irəli gəlir.

Nitq prosesi zamanı şifahi və yazılı nitq qarşılıqlı əlaqədə olur, nitq inkişafında mühüm rol oynayır. Məktəb şifahi və yazılı nitqin məqsədyönlü inkişafını təmin etməlidir. Lakin məktəb praktikasında müəllimlərin əksəriyyəti nitqin inkişafı ilə bağlı əsasən şagirdlərin yazılı nitqi üzərində işləyirlər. Bəzi müəllimlər hesab edirlər ki, əsas vəzifə yazılı nitq üzərində işləməkdir: əgər şagird müstəqil şəkildə inşa və ifadə yaza bilsə, onun şifahi nitqi müstəqil şəkildə inkişaf edəcəkdir. Əlbəttə, bunu məqbul hesab etmək olmaz. Biz yalnız yazılıq nitqin hər iki növündə yaza bilən şagirdin nitqinin inkişafı haqqında danışa bilərik.

Rabitəli nitq şagirdin öz fikrini ardıcıl, səlis, yığcam və şəkildə ifadə etməsi deməkdir. Şagird ifadə edəcəyi fikri yaxşı anlamalı, onu dil cəhətdən düzgün ifadə etməyi bacarmalıdır. Şagirdin nəql etdiyi material müəyyən ardıcıllıqdan ibarət olmalıdır. Nitqdəki rabitə pozularsa dinləyən şəxs qarşı tərəfi anlamır.

Məzmun cəhətdən dolğun, düzgün quruluşda nitqə nail olmaq üçün hadisələr ardıcıl veril-

məli, fikir tam anlaşıqlı cümlələrlə ifadə olunmalı, hər bir cümlə özündən əvvəlki ilə müəyyən məntiqi və sintaktik əlaqəyə girməlidir.

Şagird mühüm fikri vacib olmayandan ayıra bilmirsə, bu zaman onun nitqin dolğun və səlis ifadə olunmur. Rabitəli nitqə əsas tələbələrdən biri də odur ki, şagird hazır kitab cümlələrini əzbərləməsin, fikrini müstəqil, sərbəst şəkildə ifadə edə bilsin. Onun danışığında öz üslubu olunsun. Şagirdin müstəqilliyi, yaradıcılıq meyli rabitəli nitq vasitəsilə inkişaf edir.

Şagirdlərin şifahi nitqinin üzərində aparılan müşahidələr göstərir ki, onların nitqi qüsurlu olur. Bu müşahidələri belə ümumiləşdirmək olar:

— sözlər və səslər düzgün tələffüz olunmur;
— şifahi nitq tələbləri gözlənilmir;
— qrammatik qaydalara və üsluba olan tələblərə əməl edilmir;
— nitqdə vulqar sözlər istifadə olunur;
— yerli şivə sözlərinə nitqdə geniş yer verilir (1, s. 89).

Şifahi nitqin tələbləri aşağıdakılardır:

1) məzmunlu və inandırıcıdır;
2) əlaqəli və məntiqlidir;
3) qısa, düzgün, emosional və ifadəlidir.

İbtidai siniflərdə nitqin inkişafı üzrə işin nəticəsi şagirdlərin öz biliklərini rabitəli formada necə ifadə etmələri ilə müəyyən edilir. Rabitəli nitq xarici aləmin şagirdlər tərəfindən öz bilik səviyyəsinə və yaşına uyğun olaraq dərk edilməsi, qrammatik və üslubi cəhətdən anladıqlarını doğru ifadə etməkdir.

Şagirdlər gördükləri və eşitdikləri şeylər, eləcə də həyat təcrübələri haqqında danışdıqları və ya yazdıqları zaman, sözləri yerində dəqiq istifadə edə bilməli və cümlələri düzgün qrammatik şəkildə qurmalıdırlar. Bu baxımdan, lüğət və cümlə üzərində iş rabitəli nitqin inkişafı üçün həm hazırlıq mərhələsi, həm də onun vacib şərtlərindən biridir. Şagird hər hansı bir sözü düzgün istifadə etmirsə və ya ardıcıl və məntiqi ifadələr qura bilmirsə, onun nitqi rabitəli ola bilməz (3, s. 65).

Rabitəli nitq üzərində iş şagirdin məktəbə daxil olduğu ilk gündən başlamalıdır. Əlifbanın öyrənilməsi zamanı ayrı-ayrı sözlərin, ifadələrin və mətnlərin məzmunu ilə əlaqədar olaraq, onlar şəkillərə əsaslanan cümlələr qururlar, mətnin məzmununu danışırlar. Sualların cavablandırılması üzərində iş şagirdləri sərbəst yazılara, rabitəli nitqin əsas növləri olan inşa və ifadə yazılmasına hazırlayır.

İfadə və inşalar şagirdlərin nitqinin müstəqilliyinin təmin edilməsində mühüm vasitədir. Onlar bir sıra xüsusiyyətlərə malikdirlər: mətn qurulur, ifadələr, məzmun və ümumi fikir birləşdirərək düşüncə nitq inkişafında mühüm rol oynayırlar.

Azərbaycan dili və ədəbiyyatın tədrisində ən mühüm vəzifələrdən biri də orta məktəbin şagirdlərinə ifadə, inşa yazmaq vərdişlərinin aşılanmasıdır. Çünki savadlı və mədəni insan mətnin məzmununu danışmaq və ya yazmaqla yanaşı, həmçinin müəyyən mövzuda əhvalat nəql etmək və yazmaq bacarığına malik olmalıdır.

Esselər inşalar kimi qurulur. Xarakterinə görə inşadan az fərqlənən esseləri bəzi dilçilər inşanın bir növü hesab edirlər. Bununla belə, yeni metodik və didaktik ədəbiyyatlarda inşa və esse ayrı-ayrı kateqoriyalar kimi nəzərdən keçirilir.

On ildən artıq ibtidai siniflərdə tətbiq olunan tədris proqramı şagirdlərin rabitəli nitqinin inkişafı işində onlara böyük yardım edir. Dərslərdə pedaqoji esselərə də böyük yer verilir. Azərbaycan dili dərslərində müntəzəm və planlı inşalardan istifadə olunur. Azərbaycan dili fənnindən dərsliklərdə və metodik vəsaitlərdə esselərin yazılmasına xüsusi diqqət yetirilir.

Dilin bütün sahələri ilə bağlı belə məşğələlər tələbələrin nitq və təfəkkürünü inkişaf etdirir, onların fikirlərini ardıcıl ifadə etməsinə yardımçı olur. Şagirdlərin söz və cümlələri öyrənmək prosesində əldə etdikləri vərdişlər rabitəli nitqin inkişafında istifadə olunur.

Şagirdlərin düzgün tələffüz və oxu vərdişlərini, rabitəli nitqini inkişaf etdirmək, onlarda sözə, dilin ifadəlilik vasitələrinə, onun zənginliklərinə həssas münasibət və diqqətlə yanaşmaq meyli tərbiyə etmək daim müəllimin diqqət mərkəzində olmalıdır. Şagirdlərdə orfoqrafiya və durğu işarələri ilə bağlı möhkəm vərdişlər yaratmaq da vacib məsələlərdəndir. Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. Nəticədə Azərbaycan dili düşünmə, öyrənmə, danışma vasitəsinə çevrilir (4, s. 76).

Təcrübəli müəllimlər yaxşı bilirlər ki, sinifdə tək hazırlıq səviyyəsinə görə deyil, hətta nitqinə görə fərqlənən şagirdlər az deyil. Özü də bu fərq təkcə söz ehtiyatının zəif olması, bəzi şagirdlər tərəfindən nitqdə dialektivizmlərdən istifadə olunması, rabitəli nitqin zəifliyi nəticəsində deyil, sağlamlığında qüsuru olan, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla fərdi iş daha çətin olur. Bundan başqa, ölkəmizdə Azərbaycan dilinə yaxşı yiyələnməmiş azsaylı xalqların nümayəndələri yaşayır. Müəllim belə şagirdlərə fərdi tapşırıqlar verir.

Oxu materialları üzrə işlər zamanı şagirdlərin rabitəli nitqinin inkişafı və məzmunun şüurlu mənimsənilməsi məsələlərinə diqqət yetirilir. Bu mənada prof. A. Rəhimov nağıletmənin əhəmiyyətindən bəhs edərkən yazır: "Nağıletmə prosesində şagirdlər oxuduqlarının məzmununu təkcə təfsilatı ilə monoloji şəkildə verməklə kifayətlənmirlər, həmçinin zaman və məkan daxilində cərəyan edən hadisəni, təbiətin peyzajını, yazıçının məqsədini, təsvir vasitələrini, hadisənin finalını və ümumən bütövlükdə kompozisiyanı öyrənirlər. Mövzunun real həyatdan alınmasını, yazıçının yaradıcı, parlaq təxəyyülünə, fantaziyasına əsasən inikas etməsini başa düşürlər" (5, s. 124).

Ümumtəhsil məktəblərinin ibtidai siniflərindəki oxu materiallarının seçilməsində şagirdlərin yaş və bilik səviyyəsi mütləq nəzərə alınmalıdır. Aşağı siniflərdə lirik əsərlərin tədrisi şagirdlərin oxu vərdişlərini təkmilləşdirir, lüğət ehtiyatını zənginləşdirməyə xidmət edir. Ən əsası isə şagirdlərin rabitəli nitqə yiyələnmələrinə şərait yaradır ki, bu da böyük əhəmiyyət daşıyır. Oxu dərsliklərinin tərtibində lirik əsərlərin bu bölgüləri nəzərə alınmalıdır: təbiəti təsvir edən, vətənpərvərlik və əməyə sevgi hissləri tərənnüm olunan, təsvir xarakterli və digər lirik əsərlər.

Şifahi nitqin yazıya keçirilməsi məsələsi, ümumiyyətlə, yazı mədəniyyəti həm texnoloji qabiliyyətləri, həm də təfəkkür imkanlarını ehtiva edir. Araşdırmalar göstərir ki, şagirdlər normal şifahi nitqə malik olduqları halda, onu yazıda ifadə etməkdə çətinlik çəkir və özlərini müstəqil hiss etmirlər. Yəni şagird özünü yazı vasitəsilə ifadə etmək vərdişinə malik olmadığı üçün şifahi nitqi yazılı nitqə uyğunlaşdırmaqda ciddi problemlər ortaya çıxır. Odur ki, müəllim şifahi və yazılı nitqin qarşılıqlı əlaqədə, biri-birilərini tamamlayacaq formada inkişaf etdirilməsi üçün mütəmadi iş aparmalıdır.

Göründüyü kimi, dil vahidlərinə görə rabitəli nitqin inkişaf etdirliməsi məsələsi müxtəlif iş vasitələri ilə həyata keçirilir. İstər mətnin ifadəli şəkildə oxunması, istər əzbər söylənilməsi, istərsə də müxtəlif obyektlərin, düşüncələrin şifahi ifadəsi səslər, sözlər və cümlələrin beyində düzüm tezliyini artırır, onun çevikliyini, situasiyada lakonikliyini və operativliyini təmin edir. Müasir təlim metodlarında da bu məsələlər yeni texnologiyaların, innovativ vasitələrin tətbiqi ilə daha canlı və effektiv şəkildə təmin olunur. Müasir fənn kurikulumlarında fənlərarası iş, qruplarla iş, interaktiv metodlar nitqin çevik və işgüzar mühitə adaptasiya olunması məsələləri daha dərindən nəzərə alınaraq əks olunmuşdur.

**Məqalənin aktuallığı.** Şagirdlərin nitqinə onu əhatə edən hər cür mühit-ailə, küçə, məktəb, məktəbdənkənar müəssisələr və s. təsir göstərir. Bunların arasında məktəbin xüsusi rolu var. Məktəbdə şagirdin nitqinin inkişafının əsası ibtidai siniflərdə qoyulur. Azərbaycan dili və oxu fənlərinin tədrisi yolu ilə rabitəli nitqin inkişafı təmin olunur. Bundan başqa, müxtəlif yazı növlərinin şagirdlərə tədrisi onlarda düzgün nitqin formalaşmasına təkan verir. Məqalənin də aktuallığı məhz onun belə bir vacib mövzuya həsr olunması ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ibtidai siniflərdə həm yazılı, həm də şifahi nitqin inkişafı yolları araşdırılmış, bu prosesdə müəllimin rolu yüksək qiymətləndirilmiş, şagirdlərin şifahi nitqinin üzərində aparılan müşahidələr ümumiləşdirilərək xarakterik cəhətlər sadalanmış, oxu materialları üzrə işlər zamanı şagirdlərin rabitəli nitqinin inkişafı və məzmunun şüurlu mənimsənilməsi məsələləri ilə bağlı dilçi alimlərin müxtəlif tədqiqatlarının nəticələrindən konkret nümunələr göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün (I-IV siniflər) Ana dili kurikulumu. Bakı: Elm, 2007, 289 s.
2. İbtidai siniflər üçün "Azərbaycan dili" dərslikləri. Bakı: Təhsil, 2016, 340 s.
3. Kərimov Y.Ş. İbtidai siniflərdə yazılı inşalar. Bakı: Nurlan, 1998, 450 s.
4. Qurbanov V.T. Nitq mədəniyyəti və üslubiyyatın əsaslan. Bakı: Təhsil, 2018, 320 s.
5. Rəhimov A.N. Əsərləri. 20 cilddə / XX cild. (Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, BQU nəşriyyatı, 2015, 470 s.

**Г.Я. Местиева**

## Вопросы развития коммуникативной речи учащихся начальных классов

## Резюме

Речь учащихся включает в себя все виды окружающей ее среды-семью, улицу, школу, внешкольные учреждения и т. оказывает влияние. Среди них особую роль играет школа. Основа развития речи ученика в школе закладывается в начальных классах. Посредством преподавания азербайджанского языка и чтения обеспечивается развитие коммуникативной речи. Кроме того, обучение учащихся различным видам письма способствует формированию у них правильной речи. В статье рассмотрены пути развития как письменной, так и устной речи в начальных классах, высоко оценена роль учителя в этом процессе.

**G.Y. Mastiyeva**

## Development of students' communıcatıve speech ın prımary schools


### Summary

Students ' speech includes all kinds of environments-family, Street, School, extracurricular institutions, etc. has an effect. Among them, the school has a special role. The basis of the development of the student's speech at school is laid in primary classes. The Azerbaijani language and reading subjects are provided for the development of a coherent speech through teaching. In addition, mdoxtalif gives students an impetus to the formation of correct speech in their teaching. The article examines the ways of development of both written and oral speech in primary classes, the role of the teacher in this process was highly appreciated.


**Redaksiyaya daxil olub:** 28.09.2021